**UDC:** 82. (091).; 94.(479.24).
**LBC:** 71.1; 83.3; 63.2
**MJ №** 247
10.33864/2617-751X.2024.v7.i4.190-212

# Social and Political Events in Turkey and the Position of Azerbaijani Intelligence (1914-1920)

**Ayten Imanova***

**Abstract.** The proclamation of Turkish Republic on the 29th of October 1923 was an important event within the entire Turkic world. The first democratic Republic in the East was the Republic of Azerbaijan, which proclaimed independence on May 28 1918. On April 1920 Azerbaijan Democratic Republic has fallen as a result of Russian Bolsheviks occupation. Later the formation of a new Turkish Republic in the West has become an embodiment of hope for Turkic world to exist independently. Prior to the forming of Azerbaijan Republic, the true sons of Turkey became a great support for a young country and were excited about formation of the republic. Azerbaijanians for their part were supporting Turkey towards independence and also became the closest allies and comrades to Turks in this path. At the begining of 20th century the articles at magazines and papers, such as “Hayat”, “Fuyuzat”, “Teze Hayat”, “Achig soz” and “Caspian”, which were published within the support of Azerbaijan intellectuals, have gathered the society of Azerbaijani public for discussion of current at the moment historical events. The speeches of the eminent public figures (such as Ali bek Huseynzada, Akhmed Agaoglu, Alimardan bek Topchubashev, M.Makhmudbekov and Omar Faik) have played a significant role in national spirit rivival formation of patriotism and unity. Starting from the first decade of 20th century there were articles published, which call all muslim turkic nations for unity against the national opression, and in the movement for national independence during the First World War. The society of Azerbaijan has followed the changes, happening in the country and also abroad, especially in Turkey. The research of important topics, such as relationship and approach of Azerbaijan society to the development in Turkey, especially to Anatolian movement, are still valid and are of particular interest.

**Keywords:** Mustafa Kemal pasha, Kazim Karabekir pasha, Anatolian movement, Gumri agreement, “Caspian”, Ali bek Huseynzada, “Teze Hayat”

---

* Senior researcher of the Institute of Manuscripts named after M.Fuzuli, ANAS; Baku, Azerbaijan
E-mail: imanova_ayten@hotmail.com
https://orchid.org/0009-0002-9076-7872

**To cite this article:** Imanova, A. [2024]. Social and Political Events in Turkey and the Position of Azerbaijani Intelligence (1914-1920). *“Metafizika” journal, 7*(4), pp.190-212.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.190-212

***Article history:***
*Received: 23.06.2024*
*Accepted: 09.09.2024*

**УДК:** 82. (091).; 94.(479.24).
**ББК:** 71.1; 83.3; 63.2
**MJ №** 247
10.33864/2617-751X.2024.v7.i4.190-212

# Общественно-Политические События в Турции и Позиция Интеллигенции Азербайджана (1914-1920)

## Айтен Иманова*

**Абстракт.** 29 октября 1923 года была провозглашена Турецкая Республика. Это стало важнейшим событием для всего тюркского мира. После распада первого демократического государства Востока, объявленной 28 мая 1920 года, в результате оккупации большевиками Азербайджанской Республики, появление новой Турецкой Республики на Западе, стало надеждой на будущее для всего тюркского мира. Истинные сыны тюркского мира поддерживали создание Азербайджанской Республики и принимали это как достижение всего тюркского мира. Со своей стороны, азербайджанские тюрки приложили все усилия и стали самыми близкими друзьями и сторонниками на пути к становлению независимости Турецкой Республики. В начале XX века публикации, издаваемые в таких газетах и журналах, как «Хаят», «Фуюзат», «Тазе Яшам», «Ачик Сёз», «Каспи», соединили всю азербайджанскую общественность вокруг обсуждений исторических событий. Статьи, опубликованные в печати таких представителей интеллигенции, как Али Бей Гусейнзаде, Ахмет Агоглу, Алимердан Бей Топчубашов и Омар Фаик Неманзаде, сыграли важную роль в воспламенении национального самосознания народа, поднятии духа патриотизма и единства. С первого десятилетия XX в. публиковались статьи о борьбе колониальных народов против национального гнета, движении за национальную независимость, и призывающие к единству мусульманско-тюркских народов в годы Первой мировой войны. Азербайджанская общественность демонстрировала свою позицию по отношению к изменениям, происходящим внутри и за пределами страны, особенно в Турции. Исследование таких важных вопросов, как отношение азербайджанской общественности, особенно печати, к происходящим в братской Турции событиям и Анатолийскому движению, его позиция и поддержка, представляет особый интерес и остается актуальным и сегодня.

**Ключевые слова:** Мустафа Кемаль-паша, Казым Карабекир-паша, Анатолийская операция, Гюмрийский мирный договор, «Каспий», Али-бей Гусейнзаде, «Таза Хаят»

---

* Старший научный сотрудник Института Рукописей имени Мухаммеда Физули НАНА; Баку, Азербайджан
E-mail: imanova_ayten@hotmail.com
https://orchid.org/0009-0002-9076-7872

**Цитировать статью:** Иманова, А. [2024]. Общественно-Политические События в Турции и Позиция Интеллигенции Азербайджана (1914-1920). *Журнал «Metafizika», 7(4),* с.190-212.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.190-212

***История статьи:***
*Статья поступила в редакцию:* 23.06.2024
*Отправлена на доработку:* 22.07.2024
*Принята для печати:* 09.09.2024

**UOT:** 82. (091).; 94.(479.24).
**KBT:** 71.1; 83.3; 63.2
**MJ №** 247
10.33864/2617-751X.2024.v7.i4.190-212

# Türkiyədə Baş Verən Siyasi-İctimai Hadisələr və Azərbaycan Ziyalıları (1914-1920)

**Aytən İmanova***

**Abstrakt.** 1918-ci il may ayının 28-də istiqlaliyyətini elan edən Azərbaycan Cümhuriyyətinin 1920-ci ilin aprel ayında bolşeviklər tərəfindən işğal edilməsi ilə Şərqin ilk demokratik dövlətinin süqutundan sonra 1923-cü il oktyabr ayının 29-da Türkiyə Cümhuriyyətinin elan edilməsi bütün Türk dünyası üçün önəmli siyasi bir hadisə oldu. Məqalədə Türkiyə Cümhuriyyətinin İsiqlal Hərbi dönəmində Azərbaycan ziyalılarının milli hərəkata yardımları məsələləri araşdırılmışdır. Azərbaycan ictimaiyyəti qardaş xalqa dəstəyini əsirgəməmiş, bu yolun ən yaxın silahdaşları olmuşlar. XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının dərc etdikləri “Həyat”, “Füyuzat”, “Yeni Həyat”, “Açıq Söz”, “Kaspi” məcmuələrində ziyalıların yazıları xalqın milli ruhunun oyanmasında, vətənpərvərlik və birlik anlamlarının cəmiyyət həyatında xüsusi yer tutmasında önəmli rol oynamışdır. Ədəbi xadimlərimizin, ziyalılarımızın ədəbi irsinin nümunələri müstəmləkə xalqlarn azadlıq mücadiləsini dəstəkləyən, I Dünya müharibəsi dönəmində müsəlman-türk xalqlarının birliyinə çağıran örnəklər olaraq qiymətləndirilmişdir. Bunlar arasında Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əlimərdan bəy Topçubaşıov və Ömər Faiq Nemanzadənin xidmətlərini xüsusi olaraq qeyd etmək lazımdır. Məqalədə tariximizin öyrənilməsində ədəbi irsimizin araşdırılmasının xüsusi əhəmiyyəti qeyd edilmişdir. Azərbaycan cəmiyyətinin, xüsusilə də mətbuatının Anadolu hadisələri, qardaş Türkiyədə baş verən siyasi-ictimai dəyişikliklərə münasibəti, fərqli yanaşması və dəstəyi kimi mühüm məsələlər bu gün də aktualdır və diqqət mərkəzindədir.

**Açar sözlər:** Mustafa Kamal Paşa, Kazım Karabəkir Paşa, Anadolu Hərəkatı, Gümrü anlaşması, Əli bəy Hüseynzadə

* AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi; Bakı, Azərbaycan
E-mail: imanova_ayten@hotmail.com
https://orcid.org/0009-0002-9076-7872

**Məqaləyə istinad:** İmanova, A. [2024] Türkiyədə Baş Verən Siyasi-İctimai Hadisələr və Azərbaycan Ziyalıları (1914-1920). *“Metafizika” jurnalı, 7*(4), səh.190-212.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.190-212

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.06.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 22.07.2024*
*Çapa qəbul edilmişdir: 09.09.2024*

## 1.Giriş

1914-1920-ci illər Dünya tarixinin dərin izlər buraxmış bir dövrü sayılır. Bu dövr I Dünya müharibəsinin, siyasi inqilabların və mürəkkəb, ziddiyyətli və maraqlı hadisələrin baş verdiyi illərdir. Osmanlı imperiyasının müstəmləkələrinin qalib dövlətlər arasında yenidən bölüşdürülməsi, Rusiya imperiyasının dağılması ilə Qafqaz ərazisində yaranmış yeni dövlətlərin beynəlxalq münasibətlərdə cərəyan edən hadisə və proseslərdə yeri və rolu məsələləri dövrün aktual və tədqiqatı vacib problemləridir.

Türkiyə-Azərbaycan münasibətləri bütün tarix boyunca beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmüş, zaman-zaman bu münasibətlərə yad beynəlxalq ünsürlərin müdaxiləsi onların şəkil dəyişdirməsinə səbəb olmuşdur.

Türk xalqılarının üzləşdiyi ən faciəvi tarixi təhlükələrdən biri də I Dünya müharibəsi oldu. Dövrün ən qüdrətli və uzun ömürlü dövlətlərindən sayılan Osmanlı imperiyası bu müharibəyə qatılan yeganə türk dövləti idi. Osmanlı imperiyasının I Dünya müharibəsində qarşılaşdığı çətinliklər, məruz qaldığı itkilər həm də bütün Ön Asiyaya səpələnmiş və Rusiya imperiyasının tərkibində müstəmləkə zülmü altında inləyən türk xalqının faciəsi idi. Özünü türk sanan hər bir kəs bu savaşın həyat uğrunda ciddi bir mübarizə oldudğunu dərk edir və bu yolda qan bir qardaşlarına bacardığı qədər yardım etməyi müqəddəs borcu sayırdı. Azərbaycanlılar maddi yardım yetərli sayılmasa da, mənəvi dayaqla türk qardaşlarından əvəzsiz dəstəyini əsirgəməmişlər.

Digər əsir türk millətləri ilə müqayisədə daha özünəməxsus siyasətin həyata keçirildiyi Azərbaycanda istiqlal mübarizəsi kimi şərəfli və məsul bir vəzifəni üzərinə götürən və Azərbaycanı müstəqilliyə hazırlayan milliyyətpərvər ziyalı zümrəsi yetişmişdi. Bu zümrənin əsas qayəsi ümumtürk kütləsinin səviyyəsini yüksəltmək, milli mətbuat yaratmaq, ana dilini canlandırmaq, xüsusən də xalq kütlələrini milli ruhda tərbiyə etmək və onlara milli ruh aşılamaq idi [Cəfəroğlu, 2008, s.231]. Azərbaycanlılar arasında yaranan bu millətpərvər cərəyanın ilk nümayəndələri Abbasqulu ağa Bakıxanov, Həsən bəy Zərdabi və Mirzə Fətəli Axundov idi. Bu üç dahi Azərbaycanlı Azərbaycan istiqlal hərəkatının təməlini qoymuş, mədəniyyətin milli əsaslarla inkişafını təmin etmişlər: Azərbaycan taixinin “Herodotu” adlandırılan Abbasqulu ağa Bakıxanov “Gülüstan-i İrəm”i yazmaqla xalqı tarixi keçmişini unutmaqdan qurtarmış, öz mənşəyini tanıması və bununla qürur duymasına nail olmuşdur; “Əkinçi”nin nəşri ilə milli türk mətbuatının əsasını qoyan Həsən bəy Zərdabi qələmini sırf milli məsələlərin həllinə yönəltmişdir; milli dramaturgiyanın banisi olan Mirzə Fətəli Axundov Azərbaycan dilinin milli-ədəbi dil həyatını əbədi olaraq yaşamasına səbəb olmuşdur.

Əsası 1875-ci ildə "Əkinçi" qəzetini nəşri ilə qoyulan Azərbaycan milli mətbuatı Azərbaycan istiqlal mücadiləsinin inkişafında önəmli rol oynamışdır. İlk milli Azərbaycan qəzetinin nəşr edilməsini bayram kimi qarşılayan türklərin bu sevinci uzun sürməmişdi. Rus məmurları qəzetin sətiraltı mənlalarında ruslaşdırma siyasətinə qarşı çalarları sezmiş və 1877-ci ildə, onların maraqlarına qarşı yönəlmiş qəzetin bağlanmasına qərar vermişdilər. Olduqca qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, "Əkinçi" türk birliyinə çağırışları ilə ümumtürk birliyi ideyasının formalaşmasında müstəsna xidməti olmuşdur. Qəzetin səhifələrində XIX əsrdə aramsız olaraq başverən rus-türk savaşları, Avropada xristian-müsəlman qarşıdurmaları haqqında xəbərlər başlıqlarında xüsusi məlumatlar yerləşdirilirdi. Təbii ki, Həsən bəy Zərdabi Rus imperiyasının təbəəsi kimi bu xəbərlərə öz münasibətini açıq şəkildə ifadə edə bilməzdi. Lakin qəzetdə xristian həmrəyliyi haqqında xəbərlər yaymaqla, sətiraltı olaraq, müsəlmanları da birliyə çağırırdı. Məsələn, qəzetin 14 aprel 1876-cı il tarixli 7-ci sayında: "İrkutski gimnaziyasının şagirdləri 2 gün çay icməyiblər ki, onun pulunu Bosni və Qerdseqovinə əhlinə göndərsinlər" [Əkinçi, 1979, s.156] "Peterburqda vaqe olan "Slavyan milləti" adlı icma indiyəcən Qerdseqovinə və Bosni əhli üçün 243 min manat xalqdan cəm edib onlara göndərib" [Əkinçi, 1979, s.166] kimi və ya 9 avqust 1876-cı il tarixli 15-ci sayında: "Peterburqdan iyulun 20-dən yazırlar ki, bu gün Peterburqun böyük küçələrindən keçməyə yol yoxdur, oralarda mötəbər adamların övrətləri Osmanlı ilə cəng edən xaçpərəstlər üçün pul yığırlar və ol qədər pul verən var ki, tamam küçələr doludur"; və həmin xəbərin ardınca "Osmanlı qəzetlərində yazırlar ki, guya bizim Qafqaz müsəlmanları Osmanlı dövləti üçün pul yığırlar" [Əkinçi, 1979, s.222] kimi kiçik bir qeydi yerləşdirməklə sanki müsəlman türkləri qəflətdən oyatmağa çalışırdı.

XIX əsrin türk aydınlarının türk xalqlarının etnogenezi, dilini, tarix və mədəniyyətini araşdırmalara cəlb etməklə, türkdilli mətbuat uğrunda mücadiləsi ilə mədəni türkçülüyün və "türk birliyi" ideologiyasını əsasını qoymuş oldular. XX əsrin ilk onilliyində Hilmi Tunalı, Əli bəy Hüseynzadə, Yusuf Akçuraoğlu, Əhməd Ağaoğlu, Ziya Gökalp və başqaları türkçülüyün ideyalarını bütün türk millətlərinin vahid məfkurə xətti kimi İstanbulda, Bakıda, Kazanda, Baxçasarayda, Buxarada, Səmərqənddə, Təbrizdə, Tehranda, Qahirədə, Moskvada, Budapeştdə, Vyanada, Parisdə təbliği ilə türklərin siyasi hüquqları, ümumtürk birliyi və ortaq türk dili uğrunda mübarizəsi ilə türkçülük siyasi-ideoloji bir məfkurə olaraq fəaliyyət göstərməyə başladı.

Osmanlı imperiyası 1911-1913-cü illər Balkanlarda məğlub olduqdan sonra bu ideologiya türk coğrafiyasının hüdudlarını aşaraq artıq etnik türkçülük olaraq, birlik ideyalarını təbliğ edirdi.

## 2.Osmanlı imperiyasının I Dünya müharibəsindəki məğlubiyyətinin Azərbaycanın siyasi vəziyyətinə təsiri

I Dünya müharibəsi olduqca geniş ərazilərə malik Osmanlı imperiyasının süqutuna səbəb oldu. Osmanlı imperiyasının Əhməd İzzət Paşa hökuməti 1918-ci il oktyabrın 30-da Antanta dövlətləri ilə Mudros barışığını imzaladı. Mudros barışığı əslində Osmanlı imperiyasının Antanta dövlətlərinə təslim olması demək idi. Barışığın şərtlərinə görə: Osmanlı ordusu buraxılmalı; hərbi gəmilər, dəniz yolları, poçt-teleqraf vasitələri Antanta dövlətlərinə təhvil verilməli; Qafqaz, Hicaz, Asir, Yəmən, Suriya və İraqda olan Osmanlı orduları müttəfiq komandılığına təslim olmalı idi; müttəfiqlər Batuma daxil olmaq hüququ qazanırdı; və Osmanlı hökuməti Bakının işğlına müdaxilə edə bilməzdi [Qafarov, 2011, s.284]. Bundan başqa Antanta dövlətləri, vəziyyət tələb etdiyi təqdirdə Anadolunun altı şərq vilayətinin hər hansı birini işğal etmək hüququ qazanırdılar. Həm coğrafi, həm də siyasi şərait baxımından reqionda Türkiyəyə ən sız bağlı olan ölkə Azərbaycan olmuşdur və bu məğlubiyyət Azərbaycan Cümhuriyyətinin tarixində acı nəticələrə səbəb olmuşdur. Buna görə də Osmanlı imperiyası ilə bağlanmış Mudros barışığında Azərbaycanla bağlı bir sıra müddəalar da əks olunmuşdu. Azərbaycanın İstanbuldakı diplomatik nümayəndəsi Əli Mərdan bəy Topçubaşov bu maddələrlə bağlı türk tərəfinə etirazını bildirmişdi [ARDA, f. 970, siy. 1, iş 68, v.2-3. s.2-3].

Mudros barışığına görə Osmanlı hökuməti üzərinə üç əsas öhdəlik götürürdü:

1. Osmanlı hökuməti Cənubi Qafqaz üzərində nəzarət hüququnu Antantaya verirdi;
2. Osmanlı qoşunları Cənubi Azərbaycan və Cənubi Qafqaz ərazilərini 1 aydan gec olmayaraq tərk etməli idi;
3. Osmanı imperiyası Antantanın Bakını tutmasına mane olmamalı idi.

Əlimərdan bəy Topçubaşov, Azərbaycan Cümhuriyyətinin İstanbuldakı diplomatik nümayəndəsi kimi Mudros barışığının Azərbaycanla bağlı şərtlərinin ölkənin Avropa tərəfindən işğalına yol açdığını bildirərək Türkiyə tərəfinə etirazını bildirdi. Lakin onun bu rəsmi müraciətinə cavab verilmədi. Beynəlxalq vəziyyətin dəyişməsi ilə bağlı olaraq, Azərbaycan Cümhuriyyətinin nümayəndəliyi Avropa dövlətləri ilə danışıqlar aparmalı və dövlətin tanınmasına nail olmalı idi. Əli Mərdan bəy Topçubaşov İstanbulda olduğu zaman artıq bu istiqamətdə iş aparmağa başlamış və 1918-ci ilin noyabr - 1919-cu ilin yanvar ayları ərzində İstanbulda Müttəfiq dövlətlərin nümayəndələri ilə görüşmüş və bu görüşlərdə I Dünya müharibəsindən sonra Azərbaycanın vəziyyəti ilə bağlı müzakirələr edilmişdir. Ə.M.Topçubaşov Ukrayna nümayəndəsi Sukovçin, ingilis nümayəndəsi Tamp, Rusiya nümayəndəsi Milyukov, Amerika diplomatik nümayədəsi Braun,

İstanbuldakı İsveç səfiri S. Anşarveld, İtaliya nümayəndəsi qraf Sforts, ABŞ təmsilçisi Mister Naesk, Rusiyanın ağqvardiyaçı Kolçak və Denikin hökumətlərinin Paris sülh konfransındakı nümayəndəsi S.D.Sazonovla danışıqlar aparmışdır [Qafarov, 2011, s.285-286].

Mudros barışığının ağır şərtlərinə baxmayaraq, Azərbaycan nümayəndəliyinin gündəmdə duran əsas məsələlərindən biri Osmanlı hökuməti tərəfindən Azərbaycan Cümhuriyyətinin hüquqi baxımdan tanınması və siyasi dəstəyinə nail olmaq idi. Lakin Osmanlı hökuməti artıq ingilislərin nəzarəti altında fəaliyyət göstərirdi. Buna görə də Müttəfiq dövlətlərin etirazına səbəb olmasın deyə Azərbaycan nümayəndəsi Əli Mərdan bəy Topçubaşov 1919-cu il yanvarin 10-da Sultan VI Mehmed Vahidəddin tərəfindən devrilmiş Rusiya hökumətinin nümayəndəsi kimi qəbul edildi. Lakin bu görüşdə Osmanlı hökumətinin siyasi dəstəyini almaq mümkün olmadı. Bu uğursuzluğa baxmayaraq, ingilis komandanlığının Azərbaycan Parlamentinin açılışına icazə verməsi ölkədə siyasi vəzyyətin dəyişməsinə səbəb oldu. 1918-ci il dekabrın 28-də Müttəfiq dövlətlərin Bakıdakı nümayəndəsi general-mayor Tomson Azərbaycan hökumətini Azərbaycan ərazisində yeganə qanuni hakimiyyət olaraq tanıdığını bildirdi [4, s.115]. 1919-cu il aprelin 22-də Parisə getmək üçün viza almış Azərbaycan nümayəndə heyəti İstanbuldan Parisə yola düşdü və may ayının 7-dən etibarən artıq Parisdə Azərbaycan Cümhuriyyətinin tanınması istiqamətində işlər aparmağa başladı. Eyni zamanda Türkiyənin gələcək varlığı ilə bağlı məsələlər haqqında müzakirələrdə fəal iştirak edirdilər.

**3.Azərbaycan Cümhuriyyəti hökumətinin Anadolu hadisələrinə siyasi münasibəti və dəstəyi**

Bəhs etdiyimiz dövrdəki Azərbaycan-Türkiyə münasibətləri iki dönəmdən keçmişdir. İlk dönəm I Dünya müharibəsi illərində Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etməsi ilə başlanıb Mudros müqaviləsinin bağlanması ilə bitən dönəmdir. XX əsrin əvvələrində iki qardaş xalq arasındakı münasibətlərin ikinci dönəmi isə Türkiyə türklərinin Anadolunu işğaldan qurtarmaq üçün yürütdükləri İstiqlal Savaşı (1919-1922) zamanıındakı əlaqələrdir. I Dünya müharibəsində Almaniya-Osmanlı blokunun məğlubiyyəti, Ənvər paşa və Tələt paşa hökumətinin istefası və Mudros müqaviləsinin imzalanmasından sonra Osmanlı imperiyasının ingilislərin nəzarəti altına düşməsi ilə İstanbul hökumətinin Azərbaycana münasibəti dəyişdi. Bu dövrdə Azərbaycan, dağılan Osmanlı ordusunun zabit, əsgər və vətəndaşlarından ibarət bir qisminin sığındığı ölkə idi. Hər gələn türk zabitini, istər Azərbaycan xalqı, istərsə də hökumət xoş rəftarla qarşılayır, hətta hökumət zabitlərin bir qisminə (orduya alınmadan) əmək haqqı verirdi.

1919-cu ilin əvvəlində Osmanlı imperiyasında hakimiyyətə “İtilaf və Hürriyyət” partiyası gəldi. İngilispərəst siyasət yürüdən bu partiya Azərbaycana münasibətdə ehtiyatlı davranir, ölkəni nəzarətdə saxlayan qüvvələrin xoşuna gəlməyən addımlar atmaqdan ehtiyat edirdilər. Parçalanmış Osmanlı imperiyasının ərazisi ingilislər (İsgəndərun, Mosul), fransızlar (Suriyanın şimalı), italyanlar (cənub-qərbi Anadolu, Konya) tərəfindən işğal edilmişdi. 1919-cu il may ayının 15-də İzmir şəhəri Yunanıstan krallığı tərəfindən işğal edildi və bununla da Qərbi Anadoluda cəbhə açıldı. Lakin Osmanlı hökuməti bu işğal faktına münasibət bildirmədi və türk xalqı buna qarşı etirazını hər tərəfdən baş qaldıran üsyanlarla bildirdi. Kortəbii surətdə baş verən üsyanlar Mustafa Kamal Paşanın rəhbərliyi ilə hərbçi ziyalılar təbəqəsi tərəfindən geniş anti-imperialist hərəkata çevrildi [Qafarov, 2011, s.289]. 1919-cu il mayın 19-da Mustafa Kamal Paşanın Samsuna gəlməsi və Anadolu Milli Qurtuluş Savaşının başlaması ilə Türkiyədə ikihakimiyyətlilik yarandı.

1919-cu il sentyabrın 20-də Sivasda Mustafa Kamal Paşa ilə Amerika generalı Harbord arasında görüş baş tutdu. Bu görüş Türkiyə və Qafqazın siyasət tarixi baxımından çox böyük əhəmiyyət daşıyırdı. Görüşdə Mustafa Kamal paşa ilə yanaşı Rauf bəy, Bəkir Sami bəy və Rüstəm bəy də iştirak edirdilər. Görüş nəticəsində Mustafa Kamal Paşanın Qafqazda baş verən hərəkatlar haqqında dərin biliyə malik olduğu aydınlaşdı. Mustafa Kamal Paşa azərbaycanlılar və ermənilər arasında baş verənlərdən xəbərdar olduğunu, bu nifaqın ermənilərin Azərbaycan və Gürcüstan arasında, İngiltərənin himayəsində olan və cənuba doğru hərəkət edən Denikinə qarşı imzaladıqları ittifaqda iştirak etməyi rədd etdikləri üçün baş verdiyini bildirdi. Ərzurum və Van müsəlmanlarının Ermənistanda törədilən qırğına dair hər gün aldığı xəbərlərin və qaçqınların vəziyyətinin əhalini narahat etdiyini bildirən Mustafa Kamal Paşa, onun rəhbərliyi ilə sərhədləri atəşə tutan ermənilərin qarşısının alındığını bəyan etmişdi. Bununla belə, Mustafa Kamal Paşa, hazırda müsəlman xalqına yardım etməkdən və Azərbaycan müsəlmanlari ilə əməkdaşliq etməkdən daha önəmli bir vəzifəni yerinə yetirməyin vacib olduğunu vurğulayaraq, bunun vətəninin və millətinin mövcud hüdudlari daxilində istiqlal və rifahini təmin etmək olduğunu bildirmişdi. Mustafa Kamal Paşanın fikrincə, Türkiyənin sərhədlərindən kənarda aparılan məqsədlər üçün maddi və mənəvi qüvvələri dağıtmaqla xilafətin müdafiəsi üçün zəruri olan qüvvə zəifləyə bilərdi.

1919-cu il 23 iyul-7 avqust tarixlərində keçirilən Ərzurum və 1919-cu il 4-12 sentyabrda Sivas konqreslərinin qərarları 1920-ci il yanvarın 12-də işə başlayan Osmanlı Parlamenti tərəfindən “Milli And” adı altında qəbul edildi. Lakin 1920-ci il martın 16-da İstanbul ingilislər tərəfindən işğal edildikdən

sonra şəhərdə hərbi vəziyyət elan edildi və Parlamentin fəaliyyəti dayandırıldı.

Ərzurum konqresi günlərində Azərbaycandakı vəziyyəti öyrənmək və Sovet Rusiyası ilə əlaqələrin qurulması məqsədilə Kazım Qarabəkir paşa tərəfindən Ömər Lütfi bəy və Fuat Sabit bəy Bakıya göndərildi. Fuat Sabit bəyin Azərbaycan Cümhuriyyəti Baş nazirri Nəsib bəy Yusifbəyli ilə görüşü zamanı Anadolu hərəkatına yardım məsələsi müzakirə olunmuş və müsbət cavab alınmışdı. Sivaş konqresi günlərində Kazım Qarabəkir paşa Nuru paşaya Azərbaycana səfər etməsini və oradan Anadoluya yardımın təmin olunmasını tövsiyə etmişdi.

1920-ci ilin fevral-mart aylarında Paris Sülh konfransının Ali Şurası tərəfindən Londonda beynəlxalq konfrans keçirildi. Konfransda Azərbaycanla bağlı bir sıra məsələlərə baxılması gözlənilirdi. Nəzərdən keçiriləcək ciddi məsələlərdən biri də Türkiyə ilə bağlanılacaq sülh müqaviləsinin müzakirəsi idi. Bu, konfransda Cənubi Qafqaz dövlətlərinə olan marağın daha da artmasına səbəb olmuşdu. Çünki məhz Qafqaz dövlətləri daha çox Türkiyə ilə həmsərhəd idilər. London konfransında erməni nümayəndələri Türkiyəyə qarşı kəskin iddialarla çıxış etdilər. Bu iddialar konfransda müzakirə edilərkən Azərbaycanın Avropadakı nümayəndələri ermənilərin Qarsda törətdikləri vəhşiliklər haqqında Qars Milli Şurasının sədri Zeynalovun Azərbaycan Xarici İşlər Nazirliyinə və müttəfiqlərin Tiflisdəki nümayəndələrinə göndərdiyi teleqramı Parisdə nəşr olunan informasiya bülletenində dərc etmişdilər. Azərbaycan Cümhuriyyətinin Xarici İşlər naziri Fətəli xan Xoyski bu məsələ ilə bağlı erməni nazirinə iki nota göndərmişdi.

Konfransın işi zamanı Türkiyənin "mübahisəli" əraziləri məsələsi də müzakirə olundu. Müzakirə zamanı Azərbaycan nümayəndəliyinin Qarsla bağlı təklifləri Türkiyə heyəti tərəfindən rəğbətlə qarşılanmadı. Türkiyə tərəfi bu təklifi Qarsın Türkiyədən alınması kimi qymətləndirdi. Halbuki, Azərbaycan nümayəndə heyəti Qarsın gələcək varlığını "muxtar inzibati vahid" kimi davam etdirməsini təklif edərkən, bu regionun bölünməkdənsə, Cənubi Qafqaz respublikalarının birgə nəzarətində saxlanılmasını nəzərdə tuturdu.

Türkiyə Böyük Millət Məclisi (TBMM) açılanadək Ərzurum və Sivas konqreslərində seçilmiş və özünü ölkədə yeganə səlahiyyətli orqan elan etmiş 15 nəfərdən ibarət Nümayəndələr Komitəsinin 1920-ci il yanvarın 28-də qəbul etdiyi "Milli And"da Mudros barışığı bağlanan andan Türkiyənin malik olduğu sərhədlər daxilində istiqlaliyyət və ərazi bütövlüyü toxunulmaz elan olunurdu. Aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisi açıldı. Mustafa Kamal Paşa yekdilliklə TBMM-in sədri seçildi və onun başçılığı altında hökumət təşkil olundu. Tezliklə Maraş, İrfan və Antep işğalçılardan

azad edildi. Türkiyə qoşunları Kazım Qarabəkir Paşanın komandanlığı altında hücuma keçərək işğal olunmuş ərazilərin azad edilməsinə başladılar. Məğlub olan Ermənistan daşnak hökuməti təslim olaraq Gümrüdə sülh imzalamağa məcbur oldu. 1920-ci il yanvarın 2-3-də imzalanan bu müqavilə TBMM-in imzaladığı ilk beynəlxalq saziş idi. Gürcüstanın əlində olan Ərdahan və Arbvin vilayətləri də geri alındı. 1921-ci ilin yanvarında İnönü kəndi yaxınlığındakı uğurlu döyüş nəticəsində yunanların qərb cəbhəsindəki irəliləyişlərinin qarşısı alındı. Bu döyüş Türkiyə milli-azadlıq hərəkatında dönüş nöqtəsi oldu. Yunanlar 1921-ci il mart ayının axırında ikinci İnönü döyüşündə də məğlub edildilər. Türk qoşunları 1921-ci il sentyabrın 13-də ingilislərin təhriki ilə yenidən Sakariya istiqamətində hücuma keçən yunan qoşunları üzərində parlaq qələbə çaldılar. TBMM bu qələbəyə görə Mustafa Kamal Paşaya marşal rütbəsi və “Qazi” adını verdi.

1921-ci ilin payızında türk-yunan cəbhəsində kamalçıların qələbəsi, Türkiyə ilə Qafqaz respublikaları arasında bağlanmış Qars (1921-ci il oktyabrın 13-də), Fransa və Türkiyə arasında isə Ankara (1921-ci il 20 oktyabr) müqavilələri siyasi vəziyyəti dəyişdi. Bu qələbədən sonra Fransa və İtaliya Türkiyəyə qarşı müharibəni davam etdirməyin mənasız olduğunu dərk edərək öz qoşunlarını Anadoludan çıxartdılar. Sakariya məğlubiyyətindən sonra müdafiəyə keçən yunan qoşunları Afyon-Qarahisar xəttinə çəkilərək öz mövqelərini möhkəmləndirməyə başladılar. Yunanlar türk qoşunlarının hücum etmək iqtidarında olmadığına ümid edərək vaxt qazanmaq məqsədilə işğal etdikləri torpaqları əllərində saxlayır, sülh imzalamaq barədə də düşünmürdülər.

Türk orduları 1922-ci il avqustun 26-da Qocatəpə ərazisindən güclü hücuma keçdilər. Onlar qısa müddət ərzində Afyon-Qarahisar xəttini yararaq 200 minlik yunan ordusunu mühasirəyə saldılar. Afyon azad edildi. Türk qoşunları yunanları Aralıq dənizinə sıxışdıraraq, sentyabrın 9-da İzmiri azad etdilər. Oktyabrın 11-də Antanta dövlətləri və Yunanıstan Mudanya sülh müqaviləsini imzaladılar. Mudanya konfransında türk nümayəndəsi İsmət Paşanın çıxışından sonra müttəfiqlər Türkiyə məsələsində fikirlərini dəyişdilər [08.10.1922. Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, f. 649, s. 3, f. 44, v.1-1. s.3]. Antanta ilə Türkiyə arasında aparılan danışıqlardan sonra 1923-cü il iyulun 24-də Lozannada sülh müqaviləsi imzalandı. Bu müqavilə ilə Təslimçilik rejimi, Mudros və Sevr müqavilələri ləğv edildi, Mudanya müqaviləsinin şərtləri, Türkiyənin müstəqilliyi tanındı və Türkiyənin ərazisi indiki sərhədlər çərçivəsində (780,6 min kv. km) təsbitləndi.

1923-cü il oktyabrın 2-də Mustafa Kamal paşanın komandanlıq etdiyi türk ordusu sonuncu işğalçı qoşunları - ingilis hərbi gəmilərini İstanbul ətrafından vurub çıxardılar. Türk ordusunun İstanbula girməsi ilə qurtuluş savaşı faktiki

olaraq başa çatdı və yeni siyasi dövr başlandı. 1923-cü il oktyabrın 29-da Mustafa Kamal TBMM-də çıxış edərək Türkiyə Cümhuriyyətinin yarandığını elan etdi. Parlament Mustafa Kamalı ölkənin ilk prezidenti seçdi.

Bu Türk dünyasını böyük uğuru idi. Regionda Türkiyənin müstəqil və həyat qabiliyyətli dövlət kimi mövcud olması olduqca vacib siyasi amil idi. Türk xalqının milli və müstəqil yaşaması onun düşmənlərinin qalib ikən məğlubiyyəti demək idi.

Türkiyədə 1919-cu il hadisələri ilə başlanan milli istiqlal mücadiləsi Azərbaycan Cümhuriyyətinin bu dövlətə münasibətində çətinliklər yaratdı. Azərbaycan hökuməti həm Türkiyənin İstanbul hökuməti ilə rəsmi münasibətlərini davam etdirir, həm də Mustafa Kamal Paşanın rəhbərlik etdiyi Heyət-i Təmsiliyyə (1919-cu il) əlaqələr qurmağa cəhd göstərirdi. Azərbaycan Cümhuriyyəti müxtəlif yollar və vasitələrlə Anadolu milli azadlıq hərəkatına dəstəyini ifadə edirdi. Azərbaycan Cümhuriyyəti ən çətin beynəlxalq vəziyyətdə, müstəqilliyinin qəbul olunması uğrunda mübarizə apardığı günlərdə belə Anadolu hərəkatını dəstəkləməkdən çəkinməmişdir. Bu dövrdə Azərbaycan hökumətinin Anadoluya yardım etmək fikrində olduğunu ingilis hökuməti gizli agentləri vasitəsilə öyrənmişdi. Admiral Robecten lord Kerzona belə bir teleqram göndərmişdi: “*Azərbaycan hökumətilə Türkiyə millətçiləri həmfikirdirlər. Azərbaycana silah vermək lazım deyil*” [Baykara, 1992, s.271].

Mustafa Kamal Paşanın rəhbərlik etdiyi Heyət-i Təmisiliyyə də Azərbaycanın müstəqilliyini dəstəkləyirdi. Mustafa Kamal Paşa bildirirdi ki, Osmanlı hökümətinin sonuncu hökmdarının Osmanli qüvvələrini Qafqazin, Azərbaycan hökumətinin qüvvətləndirilməsi və Misrin geri alinmasi məqsədləri uğrunda istifadə etdiyinə görə türk xalqı böyük tələfat vermiş, bir çox məhsuldar və qiymətli torpaqlarını itirmiş, dövlətin paytaxtı, İzmir, Antalya və Adana şəhərləri xarici dövlətlərin işğalına məruz qalmışdı [Təvətoğlu, 1969, s.600-601].

Lakin bu heç də Mustafa Kamal Paşanın Azərbaycan Cümhuriyyətini önəmsəmədiyi anlamına gəlməməlidir. Azərbaycan Cumhuriyyəti hökumətinin Anadoluda başlayan Milli Mücadilə hərəkatının məqsədini yaxşı anladığını, vəziyyətə biganə qalmayaraq əlindəki imkanlarla yardım göstərmək üçün hərəkətə keçdiyini yüksək qiymətləndirən Mustafa Kamal Paşanın Türkiyə Böyük Millət Məclisinin açılışının ertəsi günü 24 aprel 1920-ci ildə keçirilən toplantıda söylədiyi sözlər bunu açıq göstərir: “Azərbaycan, hamınıza məlum olduğu kimi İstiqlaliyyətini təsdiq etdirmiş bir vəziyyətdədir. Onların dahi bizə qarşı səmimiyyətləri vardır. Fəqət öz zatən istihsali istiqlaliyyət etmiş olduğu üçün bizimlə olan münasibəti bittabi rəsmi bir şəkildə deyildir. Fəqət bizim məqsədimiz üçün bütün mənası çalışa biləcək ünsurlara malikdir” [Avşar, 2007, s.10].

Bununla belə, Sovet Rusiyasına münasibət baxımından Azərbaycanla yeni Türkiyənin mənafeyi bir-birinə zidd idi.

Təəssüf ki, Azərbaycan hökuməti açıq formada Anadolu hərəkatını dətəkləyə bilmirdi və bunun da səbəbi hökumətin Paris Sülh konfransında müstəqilliyinin tanınması üçün ingilislərin də dəstəyinə ehtiyacı olmasında idi. Belə bir siyasət Azərbaycanın müstəqilliyini də təhlükə altında qoya bilərdi. Bundan əlavə, Anadolu hərəkatının başlanğıcında Azərbaycan xalqına qarşı milli qırğınların dayandırılmasında və xalqın xilasında xüsusi xidmətləri olan Osmanlı hökuməti də hələ mövcud idi və onunla rəsmi münasibətlər davam ediridi.

**4.Azərbaycan mühacirətinin Türkiyə Cümhuriyyətinə münasibəti**

1920-ci il aprel ayının 27-də Azərbaycan bu dəfə Sovet Rusiyası tərəfindən işğal edildi və sovetləşdirmə başlandı. Bununla da Azərbaycan müstəqil milli dövlətçiliyini itirdi. Bu zamandan etibarən Paris Sülh konfransında Azərbaycanı və Qafqazın digər dövlətlərini təmsil edən nümayəndə heyətləri fəaliiyətlərini xaricdən yürütməyə və istiqlalın bərpası uğrunda mübarizəyə başladılar.

Aprel ayının sonunda İtaliyanın San-Remo şəhərində keçirilən beynəlxlq konfransdan Parisə dönən Azərbaycan nümayəndə heyəti bu xəbəri Fransa mətbuatından aldı.1921-ci il may ayının 8-də Azərbaycanın Parisdəki Sülh heyəti toplantı keçirdi. Toplantıda Qafqaz respublikalarının müstəqilliklərinin bərpası uğrunda birgə mübarizə aparmanın zəruri olduğu bildirilmişdi. Buna görə də Qafqaz konfederasiyasının yaradılması təklif olundu. Fransa hakim dairələrinin nümayəndələri bu fikri olduqca müsbət qarşıladılar. Qafqaz Konfederasiyası məsələsi 1921-ci il mart ayının 25-də Parisə səfər edən Türkiyənin Xarici işlər naziri Bəkir Sami bəylə də müzakirə olundu. Yalnız erməni nümayəndələrinin iştirak etmədiyi bu görüşdə Bəkir Sami bəy, Türkiyənin Qafqaz respublikalarına hər hansı bir iddiasının olmadığını, Rusiya ilə Anadolu arasında möhkəm bir müdafiə səddi kimi Qafqaz Konfederasiyasının qurulmasında maraqlı olduğunu bildirdi [12, s.469].

1921-ci il iyun ayının 10-da Qafqaz respublikalarının (Azərbaycan, Ermənistan, Gürcüstan və Dağlı respublikaları) Parisdəki səlahiyyətli nümayəndələrinin birgə iştirakı ilə ilk toplantısı keçirildi. Toplantı bu dörd Qafqaz respublikasının siyasi və iqtisadi ittifaq yaratmasını təsdiq edən bəyannamənin qəbul edilməsi ilə başa çatdı. 10 bənddən ibarət olan Paris bəyannaməsinin 7-ci və 9-cu bəndləri Türkiyə ilə münasibətlər məsələsi ilə bağlı idi. Qafqaz respublikaları Türkiyə ilə mehriban dostluq münasibətlərinin qurulmasında maraqlı olduqlarını bəyan edir, gələcək müasibətlərin bu əsaslarda formalaşması üçün Rusiya və Türkiyə tərəfindən Qafqaz respublikalarının ərazilərinin işğalına son qoyulmasının vacib olduğunu bildirirdilər.

1921-ci il iyul ayının 4-də Parisdə Qafqaz mühacir hökumətlərinin Rusiya mühacir hökumətinin nümayəndələri ilə birgə toplantısı keçirildi. Konfransda Azərbaycanın nümayəndəsi Əlimərdan bəy ingilis-fransız müttəfiqlərinə müraciət edərək, Şərqdə stabilliyin təminatçısı olan Türkiyə hökumətinin hüquqlarını tanımağa çağırdı.

1921-ci il oktyabr ayının 23-də Qafqaz mühacirlərinin nümayəndələrinin Fransanın Baş naziri Brianla görüşü baş tutdu. Qafqaz nümayəndələri, ermənilər istisna olmaqla, belə hesab edirdilər ki, Fransa-Türkiyə müqaviləsi kamalçıları bolşeviklərdən uzaqlaşdıracaq. Bu da öz növbəsində regionda Sovet Rusiyasının mövqelərini zəifləd əcək. Antibolşevik mübarizənin davam etdiyi təqdirdə və türklərlə razılıq əldə olunduqdan sonra bolşeviklər Qafqaz tərk etməli olacaqlar.

1923-cü il may ayının 9-da Paris Sosiologiya Cəmiyyəti Azərbaycan haqqında geniş konfrans keçirdi. Konfrans iştirakçıları Yeni Kamalçı Türkiyəni dəstəklədiklərini bildirir, gənc Türkiyə Cümhuriyyətinin rəhbərliyinin iqtisadi və siyasi əsaslarda islahatlara başlamasını təqdir edirdilər. Konfrans iştirakçıları türk xalqı ilə vahid etnik kökə mənsub olduqlarını vurğulayaraq dil, ədəbiyyat və adətlərimizin eyni olduğunu, yalnız dindaş deyil, həm də millətdaş olduqlarını bildirmişdilər. Fransa hökumətinin başçısı Raymon Puankare Fransa hökumətinin həyat qabiliyyətli müstəqil Türkiyənin yaradılmasına dəstək verməsi siyasətini alqışlayaraq bildirmişdi ki, Türkiyə dövlətinin var olmasının Yaxın Şərqdə əmin-amanlığın təminatı kimi qiymətləndirir.

Lakin Azərbaycan mühacirətinin keçirdiyi bu və başqa görüşlər, müraciətlərin çoxu cavabsız qaldı. Bu isə artıq getdikcə Avropada mühacirətin fəaliyyətinə olan marağın azalmasından irəli gəlirdi. Bu dövrdə 1921-ci ildə Moskvada RSFSR ilə Türkiyə arasında Dostluq, 1925-ci ildə SSRİ ilə Türkiyə arasında 3 il müddətinə hücum etməmək və bitərəflilik haqqında müqavilələr bağlandı [12, s.93]. Bu müqavilələrin bağlanması ilə Sovet İttifaqının Türkiyəyə təsiri daha da artdı. Nəticədə, 1927-ci ildə Türkiyədə “Yeni Kafkasya”nın nəşri qadağan edilir, Azərbaycan Milli Mərkəzinə yardımların edilməsi dayandırılır. 1931-ci ildən mühacir müsavatçılatrın bir çoxu Türkiyəni tərk edərək Polşaya mühacirət etməli olurlar.

**5.Azərbaycan mətbuatında ümumtürk birliyi ideyaları**

Artıq XX əsrin əvvəllərindən Azərbaycanda milli istiqlal mücadiləsinin yeni dönəminin başlanmasıyla Azərbaycan mətbuatında xalqı oyanışa, birləşməyə çağıran yazılar daha çox dərc olunur, 1905-ci il ilk Rus inqilabından haqq və hüquq mübarizəsində mümkün qədər çox şey əldə etmək lazım olduğu fikri irəli sürülürdü. Azərbaycan azadlıq mübarizəsinin rəmz və işarələrlə ifadə olunan milli ideyaları mətbuatda daha aydın və açıq

şəkildə ifadə olunmağa başladı. Bu dövrdə Azərbaycanda türkçülüyün, İslam birliyi ideyalarının fəal təbliğatçılarından olan Əli bəy Hüseynzadə varlığa sahib bir millət kimi hər şeydən öncə dini qorumağın vacib olduğunu, gələcək rifahımız üçün məqsədlərimizi İslam qanunları ilə bağlı həyata keçirməyin vacib olduğunu vurğulayırdı. Onun yaxın silahdaşı Əhməd bəy Ağayev isə milli etnik amili daha önə çəkirdi.

XX əsrin əvvəllərində Rusiya imperiyasında ictimai-siyasi və iqtisadi ziddiyyətlər kəskinləşməsi, Rusiya dövlətinin zəifləməsi və hakimiyyətin nüfuzunun enməsi fonunda imperiyanın müsəlman xalqları arasında qeyri-rus etno-siyasi amilinə, etnik mənşəcə qohum xalqlara və eyni etiqaddan olan Osmanlı İmperiyasına maraq getdikcə artırdı. Rusiya hökumətinin bütün türkdilli mətbuat orqanlarının, mətbəələrin, təhsil müəssisələrinin, türk-müsəlman ruhanilərin və milli ziyalıların fəaliyyətini diqqət mərkəzində saxlaması, məscidlər və ibadət evlərinə, məscidlərdə oxunan xütbələr və ictimai yerlərdə edilən çıxışlara nəzarət etməsi Qafqaz müsəlmanlarının əksəriyyətinin və digər Rusiya müsəlmanlarının birlik ideyalarının daha da güclənməsinə gətirib çıxarırdı. Bu dövrdə çar jandarma idarəsinin Rusiyanın mənşəcə türk təbəələrinə əvvəldən də şübhəli olan etibarı təmamilə yox olmuşdu. Rusiyanın müsəlman-türk təbəələri açıq-aydın imperiyanın təhlükəsizliyi üçün potensial bir təhdid olaraq qiymətləndirilir və Türkiyənin maraqları üçün casusluq etməkdə şübhəli kimi qəbul edirdi.

XX əsrin əvvəllərində Azərbaycanda milli hərəkatı və ümumtürk birliyi ideyasını gücləndirən amillərdən biri də Balkan müharibələrinin başlanması oldu. Müharibənin xristian-müsəlman qarşıdurması xarakteri Rusiya imperiyasında qeyri-rus millətlərin mucadiləsində milli cərəyanı daha da qabartdı və imperiya daxilindəki müxalifətçilər arasında ixtilaflara səbəb oldu. 1912-ci ildə başlanan Balkan müharibələri dövründə Azərbaycandan qaçqın türklərə yardım məqsədilə İstanbula könüllülər gəlməkdə idi. İstanbulda qurulan "Qafqaz könüllü hissəsi"nin sıralarında Əhməd Cavad Azərbaycan ədibi, şair və pedaqoqu Abdulla Şaiqlə birlikdə Trakiya cəbhəsində soydaşları olan Türkiyə "mehmetcik"lərilə səngərlərdə çiyin-çiyinə döyüşə girərək düşmənlə mübarizə aparırdılar. Balkan müharibəsi qurtardıqdan sonra Yusif Akçura oğlu, hər iki Azərbaycan şairinə, Azərbaycanda onlara daha çox ehtiyac duyulduğunu və öz doğma yurdlarına dönərək xalqına xidmət etmələrini tövsiyə edir. Bu tövsiyədən sonra hər iki ədib Azərbaycana dönür.

1915-ci ildə Məhəmməd Əmin Rəsulzadə "Açıq söz" adlı qəzet vasitəsilə İstanbulda olduğu zaman tanış olduğu Ziya Gökalpın "türkçülük" fikirlərini yaymağa başladı. Bu təbliğatın nəticəsində qırx milyona yaxın türkü əsarət altında saxlayan rus imperiyası ilə Osmanlı dövləti arasında müharibə başladığı zaman məhkum millətlər rusların məğlub olmasını arzulayır və

qurtuluş yolunu bunda görürdülər. Müsavat partiyasının lideri Məhəmməd Əmin Rəsulzadə 1917-ci il rus inqilabından sonra "Açıq söz" qəzeti vasitəsilə milli ideyaları daha açıq və ardıcıl şəkildə xalq arasında Azərbaycan istiqlal fikrini yaymağa başladı. Belə bir şəraitdə Müsavat partiyasının 1917-ci ildə toplanan birinci konqresində "türkçülük-millətçilik" ideyası belə qeyd olunurdu: "*Yalnız din birliyi müasir mənada bir milləti təşkil edə bilməz. Milləti müəyyən edən müştərək əlamətlərdən başlıcası dil, adət və ədəbiyyatdır. Bu baxımdan bütün türklər bir millətdir*".

İkdam qəzetinin müxbirlərindən olan Əli Fəhmi də yazdığı məqaləsində Qars və ətrafındakı müsəlman qaçqınların məruz qaldıkları fəlakətlərdən bəhs edərək, bu insanlara həm bir dindaş, həm də millətdaş olduğu üçün daha çox üzüldüyünü bildirmiş və Azərbaycan xalqına səslənmişdi: Bütün bunları nəzərə alaraq, bu insanlara imkanlarımız daxilində yardım etmək hər birimizin vəzifəsidir. Bu elə bir vəzifədir ki, mədəniyyət, insanlıq, İslamiyyət tərəfindən alqışlanacaqdır. Veri, qardaşlarım, verin, verin. Zavallılara, ac qalana, yetimə verin..." [Aslan, 2000, s.109]

İndiyə kimi də Qafqaz Cəbhəsi döyüşlərində müsəlmanların düçar olduqları fəlakətləri Azərbaycan xalqına çatdıran və lazım olan zamanda onlar üçün yardım tədbirlərinin hazırlanmasında Azərbaycann türk mətbuatı önəmli rol oynamışdı. Azərbaycan mətbuatı xalqa yaxınlaşan Novruz bayramının Qars və ətrafında çətin vəziyyətdə olan qardaşlarına yardım etmək üçün bir vasitə olduğunu bildirdi. Novruz bayramının Azərbaycan xalqı üçün bir imtahan olduğunu bildirən Azərbaycan qəzetləri, bunu özləri üçün də bir imtahan sanyırdılar. Beləliklə, qəzet sahibləri və ədiblər yaxınlaşan Novruz bayramı münasibətilə Bakıda Nicat Maarf Cəmiyyətinin idarəsində toplanaraq, "Qardaş Kömegi" adı altında bir qəzet nəşr etməyi qərara aldılar. Beləliklə ilk dəfə olaraq, Azərbaycan türk mətbuat xadimləri tərəfindən "Qardaş kömegi" şüarı ortaya atılmış oldu. Bakıda nəşr edilən "Doğru Söz" qəzetinin müxbiri "Qardaş kömegi"nin "Qafqaz döyüş meydanında fəlakətə düçar olmuş müsəlmanların əzablarını yüngülləşdirmək üçün uzanan yardım əlinin yaratdığı şəfqət və mərhəmət hissinə verilən ən münasib ad idi" [Aslan, 2000, s.111]. Bundan sonra Azərbaycan türkləri Qafqaz Cəbhəsi döyüşlərində zərərçəkən, haqsızlığa və qətliama uğrayan, müxtəlif itkilərə məruz qalan, qaçqın və əsir düşən dindaşlarına və millətdaşlarına edilən bütün maddi və mənəvi yardım fəaliyyətlərini "Qardaş kömegi" şüarı altında yürütmüşlər.

Əslində "Qardaş köməgi" toplusu görkəmli mütəfəkkir və Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi irsinin əvəzolunmaz növbəti ideyalarından biri idi. Hələ 1876-cı il fevralın 15-də Həsən bəy "Əkinçi"nin 3-cü sayında "Rusiyanın elm sahibləri bir kitab çap ediblər ki, ismi "Qardaş köməyi"dir. Onu satmaqdan cəm olan məbləği Qerdseqovinə əhlinə

göndərəcəklər" xəbərini paylaşmaqla, yəqin ki, növbəti dəfə türklərə birliyi ifadə etməyin və dəstək olmağın məqbul yolunu göstərmişdi [Əkinçi, 1979, s.126].

Azərbaycan mətbuatının Anadolu türklərinə göstərdiyi mənəvi dəstək nümunələrindən biri də 1917-ci ildə Bakıda "Qardaş kömәgi" adı ilə nəşr edilən məcmuə oldu. "Hərbzədə müsəlmanlara müavinət məqsədilə çıxarılacaq "Qardaş köməyi" məcmuəsinin təhriri və nəşri xüsusunu idarə üçün Bakı mühərrirləri və ədibləri tərəfindən seçilən komissiyon bununla bütün Rusiya türk, tatar mühərrir və ədib arkadaşlarına müraciətlə ehsasati-milliyəyə tərcüman olacaq bu məcmuəyə qələmlə müavinətlərini rica edir. Eyni zamanda digər sinfi-ərbabının dəxi elan vermək, məcmuəsinin satışına kömək etmək və s. maddi və mənəvi müavinətlərdə bulunmaq surətilə bu məcmuənin nəşrinə yardım etmələrini gözlər" [5; s.4]. Və görkəmli Azərbaycan ziyalıları bu topluda əsərlərini dərc etdirməklə Dünya müharibəsində və ümumiyyətlə beynəlxalq dövlətlər sistemində müsəlman xalqlara qarşı törədilən ədalətsizliklər əleyhinə haqq səslərini ucaltdılar. Topluda Abdulla Şaiq, Abbas Səhhət, Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Əhməd Cavad, Firidun Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Seyid Hüseyn, Cəfər Cabbarzadə, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Ömər Faiq Nemanzadə, Şəfiqə Əfəndizadə, Hacı İbrahim Qasımov, Nemət Bəşir, Fateh Kərim, Sabit Manafzadə, Hüseyn Mirzəcamalov, Əli Mişan, Asya Nərimanova, Əli Şövqi, Bədrəddin Əlhüseyni, Oruc Orucov və başqalarının müxtəlif janrlarda əsərləri dərc edilmişdir. Məcnuənini əsl məramnaməsi zülmkarlara qarşı mübarizə, müharibədən zərər çəkmiş insanlara qardaş əlinin uzadılmasına çağırışdır. Məcmuədə türkçülük məsələlərinə də geniş yer verilmişdir. Ömər Faiq Nemazadənin "Bən kiməm?" məqaləsi, Hüseyn Cavidin "Hərb və fəlakət" şeri, Salman Məhəmməd Əmin oğlu Turxanın "Qul" məqaləsi, Şəfiqə xanım Əfəndizadənin "Qadın səsi" hekayəsi diqqəti cəlb edir. Toplunun ən əsas mövzusu müharibə və onun törətdiyi faciələrdir. Əhməd Cavadın "Xuda qəbul nəkə", Abbas Səhhətin "Qara günlü Həlimə", Əbdürrəhim bəy Haqverdiyevin "Süleyman əfəndi", Asya Nərimanovanın "Bənövşə çiçəgi" hekayələrində müharibənin dəhşətləri, əzizlərini itirmiş insanların faciəsi, ağır itkilərə məruz qalmış qaçqınların müsibətləri təsvir edilmişdir.

Fateh Kərim "Millət sağ olsun" yazısında müharibə nəticəsində bütün Avropanın qaçqınlarla dolu olduğunu bildirir. Ancaq onların arasında Anadolu qaçqınlarının vəziyyətinin daha ağır olduğunu bəyan edərək, başqa qaçqınlardan fərqli olaraq, türk qaçqınlarının iki il deyil, iki yüz ildən bəri əziyyət çəkdiyini vurğulayırdı. Xosrov Paşa bəy Sultanov "Bakı müsəlman cəmiyyəti-xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti" haqqında məlumatda ermənilərin türklərə qarşı ədavətin səbəbinin gələcəkdə muxtar Ermənistan yaratmaq üçün türkləri məhv etmək niyyəti olduğunu göstərir.

Bir sözlə, bütün müəliflər xüsusi həssaslıqla Qars, Ərdəhan və Anadolu qaçqınlarının vəziyyətindən bəhs edir, onlara təcili yardım tədbirlərinin həyata keçirilməsinin zəruri olduğunu bildirirlər.

1917-ci ildə Bakıda nəşr olunan "Qardaş köməgi" məcmuəsi misilsiz və əvəzi olmayan bir ədəbi xəzinədir. Bu topluda yazıları dərc edilmiş şəxslər XX əsr Azərbaycan elminin, ədəbiyyatının və siyasətinin ən görkəmli simalarıdır. Dərgidə Azərbaycan mütəfəkkirləri ilə yanaşı tatar müəllifi Məhəmməd Ayaz Əlihisaqinin (Ayaz İshaqi) də imzası yer almışdır. Ayaz İshaqi İdil boyu türklərinin problemlərinə Krım, Azərbaycan, Türküstan türklərinin biganələyindən, Qafqazla fəlakətlərlə mübarizə apararkən, Acarların yurdu talanarkən Türküstan, Qırğız türklərinin sadəcə seyrçi olmasından şikayət edirdi.

"Qardaş köməgi" dərgisi I Dünya müharibəsi zamanı əziyyət çəkmiş türk xalqına Azərbaycan ziyalılarının göstərdiyi mənəvi bir dəstək, bir qardaş köməyi idi. Məcmuədə həm Bakıda, həm də Azərbaycanın xaricində yaşayan ziyalılar təmsil olunmuşdur. Onların siyasi baxışları, həyat tərzləri, sonrakı taleləri də müxtəlifdir. Və bu təmamilə müxtəlif şəxsiyyətləri birləşdirən ümumi məqsəd yüksək humanizm, əziyyət çəkən insanlara qardaş əli uzatmaq, maddi və mənəvi dəstək olmaq istəyi idi.

Bu məcmuədə dərc edilmiş yazılar, onların əhatə etdiyi problemlərin çevrəsi, müzakirə obyekti olan məsələlər bu gün də gündəmdədir və aktualdır. Məcmuəyəyə yenidən mütaciət etməyimiz tarixi baxımdan böyük əhəmiyyət kəsb edir və bu günki bir çox problemlərimizin səbəbini anlamamıza yardımçı ola bilər. Çünki tarixi unutarsaq, onu bir daha yaşamağa məhkumuq.

**6.Ədəbi irsdə Azərbaycan və Türkiyə istiqlal mücadiləsinin izləri**

XX əsrin əvvəllərindən etibarən yeni inkişaf yoluna qədəm qoyan milli mətbuat yeni milli ədəbiyyatın yaranmasına öz təsirini göstərdi. İctimai inqilabların doğurduğu yeni düşüncə tərzi, milli məfkurə və milli ideyalar ədəbiyyatda da yeni cərəyanların, yeni sözün inkişafı üçün geniş imkanlar açdı. Ədəbiyyat getdikcə daha vətənpərvər xarakter almağa başladı. Milli mətbuat və milli ədəbiyyat milli istiqlal hərəkatının əsas vasitələri oldular.1905-ci il hadisələrindən sonra yaranan ədəbi irs milli istiqlal fikrinin ən fəal təbliğatçısına və müdafiəçisinə çevrildi. Azərbaycan ədəbi xadimləri milli varlığın təsdiqi yolunda mübarizədə, türkçülük və türk birliyi ideyalarının yayılmasında əvəzolunmaz rol oynadılar.

Azərbaycan Cümhuriyyətinin yaranması ilə ədəbi-mədəni mühitdə xüsusi canlanma hiss olundu. Uzun illər Rusiyanın müstəmləkə zülmü altında əzilən xalqlar milli dövlətin yaranması ilə özünə inam, qürur hissləri duydular. Bu dövrdən etibarən milli istiqlal ideyalarının tərənnümü ön plana keçdi. Teatr binalarının tikilməsi və təmiri, yeni mədəniyyət ocaqlarının yaradılması

xalqın maariflənməsinə xidmət edirdi. Baş verən ən kiçik yeniliklər belə cəmiyyətdə əhəmiyyətli hadisə kimi qarşılanır, ədəbi xadimlərimizin diqqətindən yayınmırdı. Xüsusilə də qardaş Türkiyədə baş verən siyasi hadisələr və dəyişikliklər Azərbaycan ictimaiyyətinin diqqətindən kənarda qala bilməzdi. Ədəbi xadimlərimizin yalnız ikisinin yaradıcılığının bəzi məqamlarına aydınlıq gətirmək istərdik.

Görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlı Azərbaycan Cümhuriyyəti Parlamentinin stenoqrafı idi. Onun bu dövrdəki ədəbi yaradıcılığının tarixi əsərlərindən “Ulduz”, “Ədirnənin fəthi” və “Bakı müharibəsi” əsərləri xüsusilə diqqəti cəlb edir. “Ulduz”un mövzusu Trablis torpaqları uğrunda gedən İtaliya-Türkiyə müharibəsi dövrünü əhatə edir. Cəfər Cabbarlı “Ədirnənin fəthi” əsəri isə 1916-cı il Türkiyənin tarixi mübarizəsindən bəhs edir. “Bakı müharibəsi” Azərbaycanın XX əsrin əvvəllərində ən ağır, ziddiyyətli dövrünü bədii çalarda və dramatik fonda əks etdirmiş, erməni quldurlarına və rus bolşeviklərinə qarşı mübarizə aparan Nuru Paşaya, Mürsəl Paşaya, Məhəmməd Tofiq bəyə minnətdarlığın ifadəsi, Azərbaycanın müstəqilliyi uğrunda qəhrəmanlıq göstərərək həlak olmuş türk əskərlərinin şərəfinə ucaldılmış ilk bədii abidədir [Rüstəmli, 2018, s.49]. Bu əsərləri ilə Cəfər Cabbarlı Azərbaycanda və Türkiyədə cərəyan edən hərbi-siyasi hadisələrə münasibətini bildirmişdir. *“...Qarışqalar kimi ayaqlar altında tapdanmağa həyatmı deyirik? Hayır, türk olduğunu anlayan hər kəs bunu qəbul etməz! Yerin üstündə yatmaqdansa, altında yatmaq daha gözəl deyilmi? Biz kimsədən tərəhhüm ummayırıq. Tərəhhüm hər millətin ölməsi deməkdir. Silahına arxalanmayan bir millət yüksək dağlara belə dayanarsa, nəhayət yıxılacaqdır*” [Cabbarlı, 1996, s.237].

Cəfər Cabbarlının adı çəkilən bu əsərləri öz ideya və tutumu ilə Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələri tarixində, milli dramaturgiyamızda, türkçülük, turançılıq, Azərbaycançılıq, müsavatçılıq və istiqlal ideyalarının inkişafında rolu olan ədəbi örnəklərdəndir. Cəfər Cabbarlı 1920-ci il fevral-aylarında yazdığı poetik nümunələrdə milli müstəqilliyi gözləyən təhlükə qarşısında düşüncəli notlar hiss olunurdu [Cabbarzadə, 1920, s.3].

XX əsrin əvvəllərində türk xalqlarının başına gələn müsibətlər digər görkəmli Azərbaycan şairi Əhməd Cavadın yaradıcılığına da öz təsirini göstərmişdir. 1914-cü ildə başlanan I Dünya müharibəsində Türkiyənin şərq cəbhəsindəki döyüşləri *“Sarıqamış”* uğursuzluğu ilə nəticələnmişdi. Türkiyənin şərq hissəsi rus ordusunun işğalına, Qars və Ərzurum əhalisi rus və ermənilərin qırğınına məruz qalmışdı. Bakıda yerləşən “Azərbaycan xeyriyyə cəmiyyəti” Türkiyənin şərq vilayətlərindəki əhaliyə yardım etməkdə idi. Bu xeyriyyə cəmiyyətlərinin işində şair Əhməd Cavad da yaxından iştirak edir, Bakı ilə Qars arasında rusların törətdikləri maneələrə baxmayaraq,

yorulmadan yardım işlərində çalışırdı. Qardaş xalqın bu bədbəxt günündə Qarsda qarşılaşdığı ürək parçalayan mənzərəni bədii şəkildə "Nə gördümsə" şerində dilə gətirmişdir.

Son bənddə Əhməd Cavad bayramdan söz açır. Şeir 1915-ci il martın 22-də yazılmışdır. Bildiyiiniz kimi, Azərbaycanda mart ayının 22-də Novruz bayramı qeyd edilir. Əhməd Cavad belə bir gündə bayramı qeyd etmədiyini, Qarsdakı türk qardaşlarının yasını saxladığını ifadə edir. Çünki Qars rus orduları tərəfindən işğalı zamanı oradakı türk əhali ruslar və ermənilər tərəfindən qılıncdan keçirilmiş, Qars xarabazarlığa çevrilmişdi. Əhməd Cavadın bu hadisədən təsirlənməməsi mümkün deyildi.

I Dünya müharibəsinin sona çatması ərəfəsində Qafqaz cəbhəsində türk ordusu müvəffəqiyyət qazanır. Türk ordusu qardaş Azərbaycan birlikləri ilə Bakıya qədər gəlir. Əhməd Cavad bu dəfə də türk mehmetcikləri və azərbaycanlı əskər yoldaşları ilə Bakının Yasamal dağındakı səngərlərdə düşmənə qarşı döyüşlərdə iştirak edir. Şairin bu döyüş meydanında yazdığı "Bismillah" şeri milli ruhu yüksəldən dəyərli lirik əsərlərindən biridir.

Bunlardan əlavə, Azərbaycan və Türkiyənin istiqlal mücadiləsinə həsr olunmuş əsərləri sırasında Əhməd Cavadın "Gəlmə", "Şəhidlərə", "Ey əskər"; Məhəmməd Hadi Əbdülsəlimzadənin "Türkün nəğməsi", "Zəfəri-Nənayəyə doğru"; Salman Mümtazın "Öyün Millət"; Abdulla Şaiqin "Neçin böyle gecikdin?", "Yeni ay doğarkən" və onlarla başqalarının adlarını çəkə bilərik.

**7.Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti**

I Dünya müharibəsində Osmanlı imperiyasının Rusiyaya qarşı müharibəyə qoşulması və cəbhələrdə məğlubiyyəti Azərbaycan türklərini çaşqın vəziyyətə qoymuşdu. Yuxarıda sadalanan siyasi və mənəvi dəstək, rəsmi dövlət yardımlarından başqa, I Dünya müharibəsinin sıxıntılı günlərində Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi altında fəaliyyət göstərən Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Anadoluya çox önəmli yardımlar təşkil etdiyi məlumdur. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nizamnaməsi 1905-ci il oktyabrın 10-da qəbul olunmuşdur. Cəmiyyət rəsmi olaraq həmin il 15 noyabr tarixində fəaliyyətinə başlamışdır. Cəmiyyətin əsas fəaliyyət illəri isə məhz I Dünya müharibəsi dövrünə təsadüf edir. Bakı Müsəlman Xeyriyyə cəmiyyətinin yardım tədbirlərində Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Əli Mərdan bəy Topçubaşovun xanımları da fəal iştirak edirdilər. Onların atdıqları ilk addım zinət əşyalarını səfir Əli Kamal bəyə təhvil verilməsi oldu. Yardım tədbirləri keçirilən zaman Bakıdakı türk konsulluğunu binası önündə izdiham yaşanırdı. Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən xüsusi olaraq "Müsəlman Qaçqınlara Müavinət Komitəsi" təsis edilmişdi. Komitənin ilk toplantısmda, ilk yardımları fəlakət bölgələrindəki müsəlmanlara çatdırmaq üçün xüsusi heyət yaradıldı. İki

vagon çay, şəkər, un və geyim əşyalarından ibarət olan bu yardımı müşayət edən heyətin başçısı Ağabala Quliyev idi. Heyətin tərkibinə Mirzə Yusif Hanov, Məmməd Həsən Həsənov, doktor Vəkilov və Gəncədən Səfikürdski daxil idi. Təsis edilən bu komitələrin vasitəsilə Qafqazın bütün regionlarından yardım toplanmağa başlamışdı. Yaradılmış heyət isə yardımı ehtiyacı olanlar arasında paylanmasına nəzarət etdikdən sonra, regionda vəziyyəti araşdırmalı və zəruri ehtiyacların həcmini müəyyənləşdirməli idi. Heyətin bölgədən döndükdən sonra təqdim etdiyi hesabata regiona zamanında yardım göstərilməzsə, qaçqınların bir çoxunun acından və soyuqdan tələf olacağı bildirilmişdi. Yaranmış ağır vəziyyəti nəzərə alaraq, Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti mart ayını əvvəlində daha bir Komitə təsis etməyi qərara aldı. Bu Komitəyə Fətullah bəy Rüstəmbəyov, Həbib bəy Malimov, Behbud ağa Cavanşi və Babayev daxil olmuşdu. Görülən işlər nəticəsində müharibədən zərər çəkmiş müsəlmanlara yardım etmək üçün bir heyət yaratmaq qərar alındı. Bu heyəti təşkil etmək Bakıda Xosrov Paşa bəy Sultanova, Gəncədə Aslan bəy Səgikürdskiyə tapşırıldı. Heyət dərhal təşkil edilərək, martın 16-da Bakıdan Qarsa yola düşdü.

Tiflisdə Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyəti və Ünas Xeyriyyə cəmiyyəti Novruz bayramı münasibətilə böyük bir dəvət təşkil etməyə və dəvətdən toplanan vəsaiti Qars göndərməyi qərar aldılar.

İrəvan bölgəsinin də müsəlmanları Novruz bayramını bir imtahan günü olaraq gözləyirdilər. Bölgənin ağsaqqalları Novruz bayramını təntənəli surətdə qeyd etməkdən imtina etmişlərdi. Alınan qərar görə, martın doqquzuncu günü hər kəs məsciddə dua etdikdən sonra, bayram üçün xərləyəcəyi məbləği Qars, Ərdəhan və Sarıqamış fəlakət zonasına yardım olaraq göndərəcəkdi.

**8.Nəticə**

Anadoludan Türküstana uzanan böyük coğrafiyadakı tarixi bir, dili bir, dini bir, mədəniyyəti bir xalqların bir-birini tanımaları üçün XX əsrin əvvəllərində yaşanan hadisələrin tədqiqinin və təhlil edilməsinin çox böyük önəmi vardır.

1918-ci il mayın 28-də istiqlalını elan edərək, Rusiyadan ayrılıb müstəqil dövlət kimi yaşamağa başlayan Azərbaycan Cümhuriyyəti, türk və İslam dünyasında ilk demokratik, cümhuriyyət quruluşlu türk dövləti idi. Yeni yaranan dövlət bir çox problemlərlə üzləşdi və mücadilə etməli oldu. Hər şeydən əvvəl milli ordu yaratmaq; yeni yaranan dövlətin maliyyə və iqtisadi işlərini nizama salmaq; maarif işlərini və bir çox başqa problemləri yoluna qoymaq, ölkənin daxili asayişini təmin etmək; Cümhuriyyət hökumətinin hüquqlarını əvvəlcə ingilis işğalçı ordusu, sonra I Dünya müharibəsinin qalibləri – Antanta dövlətlərinə tanıtmaq və qəbul etdirmək zəruri idi; digər tərəfdən isə türk xalqının daimı fəlakəti olan ermənilərin, və Qafqaza doğru yürüməkdə olan Qızıl Ordunun təcavüzünün qarşısını almaq üçün çıxış

yolları düşünmək kimi daha çox siyasi və hərbi məsələlər həll olunmalı idi. Lakin təəssüf ki, çətinliklə qazanılan müstəqilliyin ömrü uzun olmadı. Rusların bu dəfə də qırmızı qüvvələri Şərqin ilk və gənc demokratik dövlətini süquta uğratdı. Eyni dövrdə I Dünya müharibəsinin qalib Avropa dövlətlərinə qarşı mücadilə edən qardaş Türkiyə bolşeviklərə qarşı mübarizə aparan Azərbaycana zəruri olan köməyi göstərə bilmədi.

İstila qüvvələri ilə amansız mübarizə şəraitində Şərqdə Azərbaycan Cümhuriyyətinın süquta uğramasından az müddət sonra Qərbdə yeni türk dövləti - Türkiyə Cümhuriyyəti quruldu.1923-cü il oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin elan olunması ilə bütün türk dünyası üçün hürriyyət və istiqlal qazanıldı.

1919-cu ilin mayında Mustafa Kamal Paşanın rəhbərliyi ilə Türkiyədə milli azadlıq hərəkatı başladı. Milli azadlıq hərəkatının nəticəsində Türkiyədə iki hakimiyyətlilik yarandı. Tükiyədə yaranmış ikihakimiyyətlilik 1918-ci ildə Azərbaycanda yaranmış iki hakimiyyətli rejimdən fərqli idi: Azərbaycan Cümhuriyyəti ikihakimiyyətlilik dövründə əslində xarici işğalçı qüvvələr ilə mübarizə aparırdı. Çünki Bakıda hakimiyyəti ələ almış Bakı Sovetini daxili müxalifət kimi qiymətləndirmək düzgün deyil. Türkiyədə yaranmış ikihakimiyyətlilik Azərbaycan Cümhuriyyəti hökumətinin Türkiyəyə münasibətdə yeritdiyi siyasətində bir sıra çətinliklər yaratdı. Çünki 1918-ci ilin mart qırğınları zamanı Azərbaycandan hərbi yardımını əsirgəməyən Osmanlı hökuməti hələ rəsmən hakimiyyətdə sayılırdı. Azərbaycan hökuməti bir tərəfdən rəsmi İstanbul hökuməti ilə münasibətlərini davam etdirir, digər tərəfdən isə Anadolu hərəkatına dəstək verir və yardım edirdi. Azərbaycan Anadolu xalqının və onun qurtuluş mübarizəsinin zəfəri üçün çox narahat idi. Ancaq müştərək bir hüdudun olmaması, yardım yollarının erməni və Antanta dövlətlərinin nəzarəti altında olduğuna görə Azərbaycan hökuməti Anadoluya zəruri kömək edə bilmirdi. Bu dövrdə ingilislərin nəzarətində olan Osmanlı sultanı Əli Mərdan bəy Topçubaşovu Azərbaycan nümayəndəsi kimi deyil, keçmiş Duma üzvü olması nəzərə alınaraq Rusiya nümayəndəsi tək qəbul etməyə məcbur olduğu kimi, ölkənin ingilislərin köməyi ilə beynəlxalq arenada tanınmasına çalışan Azərbaycan hökuməti də Anadolu hərəkatına açıq formada yardım göstərə bilmirdi. Yeni yaranmış və Antanta dövlətləri tərəfindən hüquqi baxımdan tanınmayan Azərbaycan Cümhuriyyəti hökumətinin Anadolu milli hərəkatına açıq yardım etməsi üçün siyasi baxımdan imkan yox idi.

Buna baxmayaraq, Azərbaycan Cümhuriyyəti Hökuməti, Azərbaycan siyasi xadimləri, ədibləri və sadə xalq qardaş Türkiyəyə köməyini əsirgəməmiş, hər cür maddi və mənəvi dəstək göstərmişdir.

## ƏDƏBİYYAT

**1.** Aslan, B. (2000). *I Dünya Savaşı Esnasında "Azerbaycan Türkleri"nin "Anadolu Türklüri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriyesi*. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınları.
**2.** Avşar, A. (2007). *Türkiyənin istiqlal müharibəsində Azərbaycan türkləri. Türkiyə arxiv sənədləri və mətbuatında (1919-1922)*. Bakı: AzAtaM.
**3.** Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy. 1, iş 68, v. 2-3.
**4.** *Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы)*. Баку: Азербайджан, 1998.
**5.** Bakı xəbərləri. *Açıq söz* qəzeti, 1917, 13 yanvar, № 368.
**6.** Baykara, H. (1992). *Azərbaycan istiqlal mübarizəsi tarixi*. Bakı: Nicat.
**7.** Cabbarlı, C. (1996). *Ədirnə fəthi*. Toplayanı və tərtib edəni Asif Rüstəmli. Bakı: Elm.
**8.** Cabbarzadə, C. (1920). Salam. *İstiqlal* qəzeti, 1 fevral, № 5.
**9.** Cəfəroğlu, Ə. (2008). *Seçilmiş əsərləri*. Bakı: Mütərcim.
**10.** *Əkinçi (1875-1877)*. Tərtib edəni Turan Həsənzadə. Bakı: Azərnəşr, 1979.
**11.** Əlimərdan bəy Topçubaşovun Üzeyir bəy Hacıbəyliyə məktubu. 08.10.1922. *Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi*, f. 649, s. 3, f. 44, v. 1-1.
**12.** *История внешней политики СССР*. В 2-х томах. 1917-1985. Т. 1. 1917-1945. Москва: Наука, 1986.
**13.** Qafarov, V. (2011). *Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922)*. Bakı: Azərnəşr.
**14.** Rüstəmli, A. (2018). *Cəfər Cabbarlı və milli istiqlal hərəkatı*. Bakı: Gənclik.
**15.** Təvətoğlu, F. (1969). *Türk Kültürü* jurnalı, № 81, səh. 600-601, Ankara.

## REFERENCES

**1.** Aslan, B. (2000). *The "Brotherly Help" of "Azerbaijani Turks" to "Anatolian Turks" During World War I and the Baku Muslim Charitable Society*. Ankara: Ataturk Culture Center Publications. (in Turkish)
**2.** Avshar, A. (2007). *Azerbaijani Turks in Turkey's War of Independence: Turkish Archive Documents and Press (1919-1922)*. Baku: AzAtaM. (in Azerbaijani)
**3.** *Azerbaijan Republic State Archive* (ARSA), f. 970, list 1, file 68, pp. 2-3. (in Azerbaijani)

**4.** (1998). *Azerbaijan Democratic Republic (1918-1920). Foreign Policy (Documents and Materials)*. Baku: Azerbaijan. (in Russian)
**5.** *Baku News*. *Açıq Söz* newspaper, 1917, January 13, № 368. (in Azerbaijani)
**6.** Baykara, H. (1992). *The History of the Azerbaijani Independence Struggle*. Baku: Nicat. (in Azerbaijani)
**7.** Cabbarli, J. (1996). *The Conquest of Edirne*. Compiled by Asif Rustamli. Baku: Elm. (in Azerbaijani)
**8.** Cabbarzade, J. (1920). Salam. *Istiqlal* newspaper, February 1, № 5. (in Azerbaijani)
**9.** Jafaroghlu, A. (2008). *Selected Works*. Baku: Mutercim. (in Azerbaijani)
**10.** *Ekinchi (1875-1877).* Compiled by Turan Hasanade. Baku: Azərnəşr, 1979. (in Azerbaijani)
**11.** Letter from Alimardan bey Topchubashov to Uzeyir bey Hajibeyli. 08.10.1922. *Azerbaijan State Literature and Art Archive named after Salman Mumtaz,* f. 649, l. 3, f. 44, p. 1-1. (in Azerbaijani)
**12.** *History of Foreign Policy of the USSR.* In 2 volumes. 1917-1985. Vol. 1. 1917-1945. Moscow: Nauka, 1986. (in Russian)
**13.** Gafarov, V. (2011). *The Azerbaijan Issue in Turkey-Russia Relations (1917-1922)*. Baku: Azerneshr. (in Azerbaijani)
**14.** Rustamli, A. (2018). *Jafar Jabbarly and the National Independence Movement*. Baku: Genjlik. (in Azerbaijani)
**15.** Tevetoghlu, F. (1969). *Turk Kulturu* journal, № 81, pp. 600-601, Ankara. (in Turkish)